# İQTİSADİYYAT

## MÜASİR DÖVRDƏ BEYNƏLXALQ İQTİSADİ ƏMƏKDAŞLIQ VƏ İNTEQRASİYA PROBLEMLƏRİ

**A.M.MƏHƏRRƏMOV**
***Bakı Dövlət Universiteti***
***amagerramov@gmail.com***

*Bu məqalə olduqca aktual problemə həsr olunub. Məqalənin müəllifi iqtisadi inteqrasiya və əməkdaşlıq probleminə diqqət yetirib və hər tərəfli təhlil edib. Məqalədə elmi ədəbiyyat və internet mənbəyi istifadə olunub. Əsas diqqət BTT-nın fəaliyyətinə ayrılıb. Həmçinin iqtisadi inteqrasiya və əməkdaşlıq kontekstində qloballaşma məsələlərinə toxunulub. O cümlədə, yekunda problemin hüquqi aspektləri öyrənilib.*

Ümumiyyətlə, bəşəriyyətin mövcudluğunun və inkişafının əsas elementlərindən biri dövlətlərin iqtisadi əməkdaşlığıdır. Bu əməkdaşlığın əsasında bir çox elementlər dayanır. Dövlətlərin iqtisadi və sosial maraqları, ticarət münasibətlərinin genişlənməsi, dövlətlərin iqtisadiyyatlarının inkişaf etməsi nəticəsində bir-birlərindən asılılıqlarının, yəni qarşılıqlığın güclənməsi və s. Lakin müvafiq münasibətlərin hüquqi əsası, bu münasibətlərin əsaslandığı rəhbər müddəaların mövcudluğu zəruri amildir. Dövlətlərarası iqtisadi əməkdaşlığın əsasını beynəlxalq hüququn əsas rəhbər başlanğıclarından biri olan əməkdaşlıq prinsipi təşkil edir. Ona görə də, ilk növbədə əməkdaşlıq prinsipinin hüquqi məzmununu təhlil etmək zəruridir.

Dövlətlərin iqtisadi əməkdaşlığının əsasları BMT Nizamnaməsində təsbit edilmişdir. Nizamnamənin 1-ci maddəsinin 3-cü bəndinə müvafiq olaraq, BMT-nin əsas məqsədlərindən biri, beynəlxalq əməkdaşlığın həyata keçirilməsi və iqtisadi, sosial, mədəni və humanitar xarakterli beynəlxalq problemlərin həll edilməsidir [3, 197]. Bütövlükdə əməkdaşlıq prinsipi beynəlxalq hüququn bütün digər prinsiplərinin praktiki realizəsi forması kimi 1970-ci il tarixli Beynəlxalq hüququn prinsipləri haqqında Bəyannamədə, 1975-ci il tarixli ATƏM-in Helsinki Yekun Aktında təsbit edilmişdir. Bu sənədlərdə dövlətlərin BMT Nizamnaməsinə müvafiq surətdə bir-biri ilə müxtəlif sferalarda əməkdaşlığı nəzərdə tutulur. Məsələn, 1970-ci il tarixli Beynəlxalq hüququn prinsipləri haqqında Bəyannamə beynəlxalq iqtisadi sabitlik və inkişaf, xalqların ümumi rifahına yardım məqsədilə bir-birləri ilə əməkdaşlıq öhdəliyi prinsipini beynəlxalq hüququn əsas prinsiplərindən biri elan etmişdir. Dövlətlər bütün dünyada iqtisadi inkişafa yardım işində əməkdaşlıq etməlidirlər [7, 9].

Dövlətlərin iqtisadi sferada əməkdaşlıq öhdəliyi 12 dekabr 1974-cü il tarixli Dövlətlərin iqtisadi hüquq və vəzifələri haqqında Xartiyada da bəyan edilmişdir.

Xartiyanın 8-9-cu maddələrinə əsasən dövlətlərin bu öhdəliyi daha səmərəli və ədalətli beynəlxalq iqtisadi münasibətlərə yardım göstərilməsi və bütün dünya dövlətlərinin iqtisadi və sosial inkişafına nail olması ilə şərtlənir. Hər bir dövlət öz xalqının iqtisadi, sosial və mədəni inkişafında əsas məsuliyyət daşıyır. Bu məqsədlə hər bir dövlətin öz ehtiyatlarından istifadə, proqressiv iqtisadi və sosial islahatların həyata keçirilməsi, inkişaf vasitələri və məqsədlərini seçmək hüququ var. Xartiyanın 7-ci maddəsində qeyd edilir ki, ehtiyatlardan istifadəyə mane olan vasitələrin aradan qaldırılmasında bütün dövlətlər fərdi və birgə şəkildə əməkdaşlıq etməlidir [7, 9-10].

Regional təşkilatlar, xüsusilə də ATƏT çərçivəsində iqtisadi dəyişikliklərə və müvafiq sferada əməkdaşlığa mübahisələrin qarşısının alınmasında və ilkin xəbərdarlıq edilməsi yolunda mühüm bir vasitə kimi diqqət ayrılır. Yuxarıda qeyd etdiyimiz beynəlxalq-hüquqi aktların təhlili dövlətlərin əməkdaşlığı prinsinin mahiyyətini aşağıdakı elementlərdən ibarət olması haqqında fikir yürütməyə imkan verir. Bütövlükdə əməkdaşlıq prinsipi dövlətlərin aşağıdakı hüquq və vəzifələrini müəyyən edir:

- Beynəlxalq iqtisadi münasibətlərdə tərəfdaş seçimində və iqtisadi əməkdaşlığın forma və metodlarının seçimində sərbəstlik.
- Beynəlxalq iqtisadi, maliyyə və valyuta problemlərinin tənzimlənməsi üçün qərar qəbulu prosesində iştirak hüququ.
- Beynəlxalq əmək bölgüsü və beynəlxalq ticarətdən mənfəət əldə etmək hüququ.
- İnkişaf etməkdə olan dövlətlərin (İEOÖ) iqtisadi yardım almaq hüququ.
- Üçüncü dövlətlərə, xüsusilə də İEOÖ-ə münasibətdə onların qanuni maraqlarının nəzərə alınması üzrə dövlətlərin öhdəliyi.
- Xarici iqtisadi əlaqələrdə suveren hüquqlar və qanuni maraqları zəiflədən iqtisadi və digər vasitələrdən istifadə etməmək öhdəliyi.
- Daha rasional və ədalətli beynəlxalq iqtisadi münasibətlərin inkişafına yardım göstərilməsi öhdəliyi.[7, s. 10]

Beynəlxalq iqtisadi əməkdaşlıq beynəlxalq əməkdaşlığın əsas istiqamətlərindən birini təşkil edir. Bununla belə, beynəlxalq iqtisadi hüquq anlayışında əks olunan beynəlxalq iqtisadi əməkdaşlıq anlayışının müəyyən edilməsi hələ də mübahisəli olaraq qalmaqdadır. Bir tərəfdən, beynəlxalq iqtisadi əməkdaşlıq – dövlətlərin və beynəlxalq təşkilatların beynəlxalq iqtisadi münasibətlərin sabitliyinin möhkəmləndirilməsinə, milli maraqların təmin edilməsinə və qarşılıqlı faydalı hüquqi mexanizmlərin təkmilləşdirilməsinə yönəlmiş razılaşdırılmış fəaliyyət sistemidir. Dövlətlərin, beynəlxalq təşkilatların və beynəlxalq hüququn digər subyektlərinin öz aralarındakı beynəlxalq iqtisadi əməkdaşlığı beynəlxalq iqtisadi hüququn tənzimetmə predmetinə daxildir. Digər tərəfdən, beynəlxalq iqtisadi əməkdaşlıq – müstəqillik, dövlətlərin milli suverenliyi və iştirakçıların qarşılıqlı iqtisadi fayda prinsiplərinə əsaslanmış, dövlətlərin, beynəlxalq təşkilatların, həmçinin ayrıca subyektlərin iştirakı ilə dinamik, dərinləşdirici, siyasi və təsərrüfat əlaqələrinin kompleksidir [4, 98].

Beynəlxalq iqtisadi əməkdaşlığa verilən bu anlayışdan belə bir nəticəyə gəlmək olar ki, onun subyekt tərkibi yalnız beynəlxalq ümumi hüququn subyektləri ilə məhdudlaşmır. Dövlətlərlə yanaşı, beynəlxalq əməkdaşlığın iştirakçıları dövlətin inzibati-ərazi qurumları, hüquqi və fiziki şəxslər ola bilər. Digər sözlərlə desək, beynəlxalq iqtisadi əməkdaşlıq anlayışına dövlətin təsərrüfat subyektlərinin xarici iqtisadi fəaliyyəti də daxildir [7, 11].

Beləliklə, beynəlxalq iqtisadi əməkdaşlıq sabit qarşılıqlı iqtisadi inkişafın

təmin edilməsinə və iqtisadi fayda əldə edilməsinə yönəlmiş beynəlxalq sistemin bütün subyektləri arasında beynəlxalq qarşılıqlı iqtisadi münasibətlərin qlobal çoxsəviyyəli sistemidir. Beynəlxalq iqtisadi əməkdaşlıq hakimiyyət xarakterli ümumihüquqi fəaliyyəti özündə əks etdirir. Bununla yanaşı, beynəlxalq iqtisadi əməkdaşlıq sistemi 4 səviyyədə əlaqə və münasibətləri təsbit edir. Birinci səviyyəli münasibətlərə beynəlxalq ümumi hüququn sahəsi kimi beynəlxalq iqtisadi hüququn tənzimetmə predmetinə daxil olan beynəlxalq dövlətlərarası münasibətlər daxildir. Dövlətlər və beynəlxalq təşkilatlar beynəlxalq iqtisadi münasibətlərin hüquqi əsasını, rejimini müəyyən etməklə, xarici iqtisadi fəaliyyətin vahid hüquqi tənzimləmə mexanizmini formalaşdırır. İkinci səviyyəli münasibətlərə xarici tərəfdaşlarla (federasiya subyektləri, inzibati-ərazi qurumları, fiziki və hüquqi şəxslər) yaradılan münasibətlər daxildir. Üçüncü səviyyəli münasibətlərə federativ dövlətlərin xarici iqtisadi əlaqələri daxildir. Bu əlaqələrin əsas məqsədi federativ dövlətlərin ayrıca subyektlərinin iqtisadi inkişafını stimullaşdırmaqdır. Xarici dövlətlərin fiziki və hüquqi şəxsləri arasındakı münasibətlər dördüncü səviyyəli münasibətlərə daxildir. Bu tip münasibətlər xarici iqtisadi əqdlərin bağlanması yolu ilə sistematik olaraq gəlir əldə edilməsinə istiqamətlənmişdir. Məhz belə münasibətlər xarici iqtisadi fəaliyyətin həyata keçirilməsində həlledici rola malikdir. Birinci, ikinci və üçüncü səviyyəli münasibətlər ümumi-hüquqi, dördüncü səviyyəli münasibətlər isə xüsusi-hüquqi xarakter daşıyır [10, 14-57].

Yuxarıda qeyd etdiyimiz kimi, beynəlxalq iqtisadi əməkdaşlıq, ilk növbədə sabitliyin möhkəmləndirilməsinə və beynəlxalq iqtisadi münasibətlərin hüquqi tənziminin təmin edilməsinə yönəlmişdir. Müasir beynəlxalq iqtisadi münasibətlər – ayrı-ayrı dövlətlərin milli iqtisadiyyatları arasında təsərrüfat əlaqələri sistemidir. Beynəlxalq əmək bölgüsünə əsaslanan beynəlxalq iqtisadi münasibətlər əmtəə və xidmətlərlə ticarətdə öz praktiki həllini tapır. Beynəlxalq iqtisadi münasibətlərin qurulması və inkişafı dövlətlərin iqtisadiyyatlarının qarşılıqlı asılılığı və əlaqəsinin güclənməsi ilə müəyyən olunur. Bütövlükdə, beynəlxalq iqtisadi münasibətlər dünya təsərrüfatı fəaliyyətinin aşağıdakı sferalarını əhatə edir:

- Beynəlxalq ticarət.
- dövlətlər arasında valyuta-maliyyə və kredit münasibətləri.
- Beynəlxalq investisiya münasibətləri.
- Maliyyə və əmək resurslarının hərəkəti.
- Beynəlxalq iqtisadi təşkilatların fəaliyyəti.
- Beynəlxalq iqtisadi yardım münasibətləri.

Beynəlxalq iqtisadi münasibətlərin əsas formalarından biri olan beynəlxalq ticarət ölkələrarası əmtəə və xidmət axınını özündə əks etdirir. Bu zaman alqı-satqı üzrə əməliyyatların həyata keçirildiyi beynəlxalq əmtəə və xidmət bazarları formalaşır. Əmək resursları ilə təminatda ölkələrarası fərqlər və əhalinin məşğulluq şəraiti dövlətlərarası işçi qüvvəsi axınlarının yaranmasına və inkişafına gətirib çıxarır. Nəticədə beynəlxalq əmək bazarı formalaşır.

Beynəlxalq iqtisadi münasibətlər dünya təsərrüfatının ayrılmaz tərkib hissəsidir. Dünya iqtisadiyyatında baş verən dəyişikliklər öz növbəsində bu münasibətlərin xarakter və dinamikasına da təsir göstərir. Beynəlxalq iqtisadi münasibətlər daha yaradıcı xarakter almaqla müasir çoxqütblü dünyanın yoxsulluq, iqlim dəyişkənliyi, enerji ehtiyatları ilə təminat kimi qlobal problemlərin həllinə yönəlmişdir.

İstehsalın inkişaf qanunauyğunluğu və beynəlxalq əmək bölgüsü bütün dünya

dövlətlərinin obyektiv şəkildə beynəlxalq iqtisadi münasibətlərin əhatə dairəsinə daxil olmasına səbəb olmuşdur. Müasir istehsalın beynəlxalq xarakteri qlobal iqtisadiyyat təzahürünə gətirib çıxarır. İkitərəfli münasibətlər artıq öz yerini çoxtərəfli münasibətlərə vermişdir. Əgər əvvəllər dünya dövlətlərinin təsnifatında siyasi meyarlar əsas götürülürdüsə, müasir bazar iqtisadiyyatı şəraitində dövlətlərin iqtisadi şəraiti əsas meyardır. Müasir qloballaşma və inteqrasiya şəraitində beynəlxalq iqtisadi münasibətlərin və dövlətlərarası iqtisadi əməkdaşlığın inkişafına aşağıdakı amillər təsir göstərir:

- Elmi-texniki inkişafın intensivliyi, rabitə, nəqliyyat və silahlanma sferalarında yeni texnologiyaların genişlənməsi.
- Sənayenin inkişafı və ekoloji bazanın istismarı ilə ətraf mühitə ciddi təsir.
- Əhalinin artımı və daimi yerdəyişməsi.
- Dövlətlərarası iqtisadi artımın fərqliliyi, daha dəqiq desək kasıb və varlı dövlətlər arasında fərqin azalmaması.
- Dövlətlərarası iqtisadi asılılığın inkişafı. Bu amil hüquq normalarının, həyat tərzinin və davranış qaydalarının unifikasiyasına gətirib çıxarır.
- Federasiya subyektlərinin beynəlxalq iqtisadiyyatda rolunun genişlənməsi və daha fəal iştirakı [7, 15-17].

Beynəlxalq iqtisadi əməkdaşlığın inkişafı ilə paralel olaraq, əmtəə, xidmət, maliyyə və əmək resurslarının sərbəst hərəkət edə biləcəyi vahid iqtisadi məkanın yaradılması məqsədilə suveren dövlətlərin birliyini özündə təcəssüm etdirən iqtisadi inteqrasiya prosesi də geniş vüsət almışdır. Hüquqi tənzimetmə metodu qismində iqtisadi əməkdaşlıq üçün əlaqələndirmə metodu daha xarakterikdirsə, iqtisadi inteqrasiya üçün subordinasiya (milli tənzimetmə) metodu daha uyğundur [9, 53-56].

Fikrimizcə, beynəlxalq iqtisadi inteqrasiyanın məzmununa nəzər salmaq məqsədəmüvafiq olardı. Müasir dünya təsərrüfatı milli iqtisadiyyatların məcmusu və qarşılıqlı əlaqəsi ilə yanaşı, həmçinin bir neçə dövlətin milli təsərrüfatlarını özündə birləşdirən inteqrasiya kompleksidir. Hazırda dünyada dünya ticarətinin 60%-dən çoxunu tənzimləyən 85 regional ticari-iqtisadi saziş və razılaşma fəaliyyətdədir. İnteqrasiya birliklərinin əsas formaları - azad ticarət zonası, ümumi bazar, gömrük ittifaqı və iqtisadi ittifaqdır [6, 20].

Azad ticarət zonası - qarşılıqlı ticarətdə rüsum və digər məhdudlaşdırıcı tədbirlərin ləğv olunduğu iki və daha çox dövlətlər qrupunu özündə əks etdirir. Zonadan kənar dövlətlərə münasibətdə isə saziş iştirakçısı olan hər bir dövlət ayrıca ticarət siyasəti həyata keçirir. Gömrük ittifaqı - azad ticarət zonasında olduğu kimi burada da qarşılıqlı ticarətdə vergi, rüsum və digər məhdudlaşdırıcı tədbirlər aradan qaldırılır. Azad ticarət zonasından fərqli olaraq gömrük ittifaqında iştirakçı-dövlətlər üçüncü dövlətlərə münasibətdə vahid gömrük siyasəti həyata keçirirlər. Ümumi bazar – gömrük ittifaqı dövlətlərarası qarşılıqlı ticarət, işçi qüvvəsi və kapitalın hərəkətində maneələrin aradan qaldırılması ilə tamamlandıqda formalaşır. İqtisadi ittifaq – yuxarıda qeyd etdiyimiz inteqrasiya birliklərinə əlavə olaraq iştirakçı-dövlətlər tərəfindən vahid iqtisadi siyasətin həyata keçirilməsini, sosial-iqtisadi proseslərin tənzimlənməsinin dövlətlərarası sisteminin yaradılmasını nəzərdə tutur.

Ən mühüm və intensiv iqtisadi inteqrasiya prosesləri 1957-ci ildə Avropa İqtisadi Birliyi, Avropa kömür və polad Birliyi və Atom enerjisi üzrə Avropa Birliyinin yaradılmasını nəzərdə tutan Roma Müqavilələrinin imzalanması ilə Qərbi Avropada baş vermişdir. 1 noyabr 1993-cü ildə Maastrixt Müqaviləsinin qüvvəyə

minməsindən sonra Avropa Birliyi rəsmi olaraq Avropa İttifaqı adlanmağa başladı.

Avropa İttifaqı dünyanın əksər dövlətləri ilə xüsusi ticari-iqtisadi sazişlər bağlamışdır. Məsələn, Lome Konvensiyalarına (bu konvensiyalardan birincisi 1975-ci ildə imzalanmışdır) müvafiq olaraq, Afrika, Karib Hövzəsi və Sakit Okean zonasının 70-dən çox dövlətindən gətirilən əmtəə və xidmətlər Avropa İttifaqı bazarlarında rüsumsuz rejim əldə etmişdir. Analoji sazişlər Aralıq dənizi sahilinin 12 dövləti ilə də mövcuddur. Bununla yanaşı, Türkiyə və Kiprlə gömrük ittifaqı da var. 1991-95-ci illərdə Mərkəzi və Şərqi Avropa ölkələri ilə 9 belə saziş imzalanmışdır [6, 20-25].

Roma Müqaviləsində Avropa Birliyi çərçivəsində əmtəə, xidmət, kapital və işçi qüvvəsinin azad hərəkətini nəzərdə tutan ümumi bazarın yaradılması haqqında müddəa da təsbit edilmişdi. Hazırda Avropa İttifaqı çərçivəsində regional siyasət və elmi-texniki sferada əməkdaşlıq məsələləri geniş yayılmışdır. Regional siyasət İttifaqın zəif inkişaf etmiş regionlarına (İttifaq üçün orta göstərici olan Ümum Daxili Məhsulun adambaşına 75%-dən az olan regionlar) yardım göstərilməsini nəzərdə tutur. Bu ərazilərə Yunanıstan, Portuqaliya, İrlandiya, Şimali Şotlandiya və s. Regionlar daxildir.

80-ci illərin sonlarından başlayaraq, Avropada elmi-texniki yeniliklər və müvafiq sferada əməkdaşlıq geniş vüsət aldı. Bu vaxt Avropa İqtisadi Birliyinin yaradılması haqqında Roma Müqaviləsinə elmi-texniki sahədə əməkdaşlıq haqqında xüsusi fəsil daxil edildi. Müvafiq sferada əməkdaşlığın əsasını informasiya texnologiyaları, rabitə sahəsində texnoloji vasitələr, biotexnologiya, energetika sahəsində İttifaqın rəqabət qabiliyyətinin gücləndirilməsi təşkil edir.

Avropa iqtisadi inteqrasiyasının ən mühüm nailiyyətlərindən biri də vahid valyutanın (AVRO) yaradılması oldu. 1979-cu ilin mart ayından valyuta məzənnələrinin sabitliyinin saxlanılması və inteqrasiya proseslərinin stimullaşdırılması məqsədilə Avropa Valyuta Sistemi yaradılmışdı. Sistem çərçivəsində Birliyin üzv-dövlətlərinin valyuta səbəti əsasında Avropa valyuta-hesablaşma vahidi (EKYU) formalaşdırılmışdı. AVRO hesablaşma valyutası kimi dünya maliyyə bazarlarına 1999-cu ildə təqdim olunmuşdur. 1 yanvar 2002-ci ildən isə dövriyyəyə buraxılmışdır. Avro 1979-1998-ci illərdə Avropa Valyuta Sistemində istifadə olunan EKYU-nu əvəz etdi. Hazırda AVRO Avrozonanın 16 dövlətində rəsmi valyutadır.

Avropa İttifaqı Qərbi Avropada yeganə inteqrasiya birliyi deyil. 1959-60-cı illərdə Böyük Britaniya və Skandinaviya dövlətlərinin təşəbbüsü ilə Avropa Azad Ticarət Assosiasiyası təsis edilmişdi. Əvvəllər üzv-dövlətlər bu quruma Avropa İqtisadi Birliyinə daxil olma üzrə aparılan danışıqlarda mövqelərinin möhkəmləndirilməsi vasitəsi kimi baxırdılar. Doğurdan da, 1972-ci ildə Böyük Britaniya və Danimarka, 1985-ci ildə Portuqaliya, 1995-ci ildə Avstriya, İsveç və Finlandiya Təşkilatı tərk etmişdir. Hazırda Təşkilatın üzvləri Norveç, İsveçrə, İslandiya və assosiasiyalaşmış üzv olan Lixtenşteyndir. Avropa İttifaqından fərqli olaraq, bu Təşkilat üzv-dövlətlərin suveren hüquqlarının saxlanılması və qanunvericilik səlahiyyətinə malik millətüstü orqanların olmadığı regional iqtisadi qruplaşmadır. Assosiasiya – üzv-dövlətlər arasında sənaye məhsullarının sərbəst rüsumsuz ticarətini təmin edən azad ticarət zonasıdır. Üçüncü dövlətlərlə münasibətlərdə isə hər bir üzv-dövlət müstəqil xarici ticarət siyasəti həyata keçirir və öz gömrük rüsumlarını qoruyub saxlayır.

Dünya bazarında ABŞ və Yaponiyanın mövqelərinin və rəqabət qabiliyyətinin daha da güclənməsi Avropa İttifaqı və Azad Ticarət Assosiasiyası arasında yaxınlaşma zərurətini meydana çıxardı. Nəticədə Avropa İqtisadi Məkanının yara-

dılması haqqında 2 may 1992-ci il tarixli Porto Müqaviləsi imzalandı.

1991-ci ildə Sovet İttifaqının süqutundan sonra keçmiş sosialist dövlətləri arasında da inteqrasiya prosesləri meydana çıxdı. 1992-ci ilin dekabr ayında Polşa, Çexiya, Slovakiya və Macarıstan arasında Azad ticarət haqqında Mərkəzi Avropa Sazişi imzalandı. Saziş sənaye məhsulları ilə ticarət üzrə azad ticarət zonasının yaradılmasını müəyyən edirdi. Kənd təsərrüfatı məhsullarına münasibətdə isə liberallaşma məhdudlaşdırıcı xarakter daşıyırdı. Bir qədər sonra bu inteqrasiya birliyinə Sloveniya, Rumıniya və Bolqarıstan da qoşuldu.

Müstəqil Dövlətlər Birliyi (MDB) məkanında iki əsas inteqrasiya sazişi imzalanmışdır. 1996-cı ilin yanvar ayında Rusiya, Belarus və Qazaxıstan Gömrük ittifaqının yaradılması haqqında Saziş imzaladılar. Gömrük ittifaqı üçüncü dövlətlərə münasibətdə vahid ticarət rejimi və gömrük ərazisinin birliyini nəzərdə tuturdu. Həmin ilin aprel ayında isə Rusiya və Belarus Rusiya-Belarus Birliyinin yaradılması haqqında Müqavilə imzaladılar. Müqavilə hər iki dövlətin iqtisadi və siyasi inteqrasiyasını müəyyən etməklə, əmtəə, xidmət, kapital və işçi qüvvəsinin azad hərəkət etdiyi vahid iqtisadi məkanın yaradılmasını nəzərdə tuturdu.[6, s. 30]

İqtisadi inteqrasiya proseslərinin intensiv şəkildə inkişaf etdiyi əsas regionlardan biri Şimali Amerikadır. 1989-cu ilin yanvar ayında Azad ticarət haqqında Amerikan-Kanada Sazişi qüvvəyə mindi. Nəticədə ildə təqribən 200 mlrd. dollarlıq (ABŞ Dolları) ikitərəfli ticarəti əhatə edən azad ticarət zonası təsis edilmişdi. Növbəti 10 il ərzində ABŞ və Kanada arasında qalmaqda olan bütün tarif və qeyri-tarif məhdudiyyətləri aradan qaldırılmalı idi. Bununla belə, üçüncü dövlətlərlə ticarətdə hər iki tərəf öz ticarət siyasətini müəyyən edirdi. 1991-ci ilin iyun ayında Meksikanın təşəbbüsü ilə başlanmış üçtərəfli danışıqlar 17 dekabr 1992-ci ildə Şimali Amerika Azad Ticarət Zonasının (NAFTA) yaradılması ilə nəticələnən Sazişin imzalanması ilə tamamlandı. Saziş dövlətlərin ratifikasiyasından sonra 1 yanvar 1994-cü ildə qüvvəyə mindi. Sazişin müəyyən etdiyi əsas müddəalar aşağıdakılardır:

- 2010-cu ilə qədər qarşılıqlı ticarətdə bütün gömrük rüsumlarının aradan qaldırılması.
- əmtəə və xidmətlərlə qarşılıqlı ticarətdə çoxsaylı qeyri-tarif maneələrinin mərhələli şəkildə qaydaya salınması.
- Meksikaya Amerikan-Kanada kapital qoyuluşu rejiminin yüngülləşdirilməsi.
- Amerikan-Kanada banklarının Meksika bazarlarında fəaliyyət şərtlərinin liberallaşdırılması.
- Amerikan-Kanada-Meksikan Arbitraj Komissiyasının yaradılması.

Əldə edilmiş razılaşmaların realizəsi əhalisi 378 mln., ümumdaxili məhsulu 10 trln. Dollar olan dünyanın ən nəhəng ticarət blokunun yaradılmasına gətirib çıxaracaq. NAFTA ABŞ-ın iqtisadi gücünü, Kanadanın təbii ehtiyatlarını və Meksikanın ucuz işçi qüvvəsini özündə birləşdirir. Hazırda NAFTA və Avropa İttifaqını birləşdirən Atlantik Azad Ticarət Zonasının yaradılması ideyası ətrafında qızğın müzakirələr aparılır [15, 18].

Asiya-Sakit okean regionunda isə əsas iqtisadi inteqrasiya birliyi Asiya-Sakit okean İqtisadi Əməkdaşlığıdır. NAFTA və Avropa İttifaqından fərqli olaraq, bu Birlik daha amorf (qarışıq formalı) və çoxtəbəqəli təsisatdır. Birliyin əsas fəaliyyəti özəl sektorun inkişaf etdirilməsinə yönəlmişdir [5, 154].

Hazırda dünyada İEOÖ arasında müxtəlif səviyyəli inteqrasiya qruplaşmaları

da mövcuddur. Məsələn, And Qrupu (Boliviya, Venesuela, Kolumbiya, Peru, Ekvador), Cənub Konusunun Ümumi Bazarı (Braziliya, Argentina, Paraqvay, Uruqvay), ASEAN (İndoneziya, Malayziya, Tayland, Vyetnam, Laos, Kamboca, Myanma), Qərbi Afrika Dövlətlərinin İqtisadi Birliyi və s.

Hazırda dünya iqtisadiyyatında əsas proses qloballaşma ilə bağlıdır. Bütövlükdə dünya iqtisadiyyatının qloballaşmasına istiqamətlənmiş meyar və amilləri aşağıdakı kimi qruplaşdırmaq olar:

- İqtisadi amil – kapitalın təmərküzləşməsi, öz fəaliyyətində milli sərhədləri aşan və dünya iqtisadi məkanını mənimsəyən iri korporasiyaların, firma və maliyyə qruplaşmalarının artması.
- Siyasi amil – dövlət sərhədləri get-gedə öz əhəmiyyətini itirir və bütün növ ehtiyatların azad hərəkətinə şərait yaradır.
- Beynəlxalq amil – qloballaşmanın dinamikası mühüm beynəlxalq hadisələrin tarixləri ilə əlaqələnir. Bu məsələdə xüsusilə, 3 hadisəni – Avropa Birliklərinin 1985-ci ildə Lüksemburqda keçirilmiş və Kapital, əmtəə, xidmət və işçi qüvvəsinin azad hərəkətini müəyyən edən Avropa Aktının qəbul edilməsi, 1986-ci il tarixli Uruqvay Raundu və 1990-cı ildə Almaniyanın birləşməsi, Qarşılıqlı İqtisadi Yardım Şurası və Varşava Müqaviləsi Təşkilatının süqutunu qeyd edirlər. Belə ki, «soyuq müharibə»nin başa çatması, Qərblə Şərq arasında ideoloji müharibənin sona çatması iqtisadiyyatın qloballaşmasında mühüm addım olmuşdur.
- Texniki amil – rabitə və nəqliyyat vasitələri əmtəə, maliyyə ehtiyatları və xidmətlərin tez bir zamanda yayılması, mübadiləsi üçün imkanlar yaradır.
- İctimai amil – adət-ənənələrin, ictimai münasibətlərin zəifləməsi, ruhi və emosional anlamda insanların coğrafi hərəkətliliyinə (mobilliyinə) səbəb olur [2, 20-32].

Əmtəə və kapital bazarlarının liberallaşması iqtisadi fəaliyyətin beynəlmiləlləşməsini gücləndirmişdir. Qloballaşmanın əsasını mübadilənin deyil, istehsalın beynəlmiləlləşməsi təşkil etməyə başlamışdır. Bu prosesin təşkilati forması Transmilli Korporasiyalardır. Dünya iqtisadiyyatında ticarət və istehsala mühüm təsir göstərən maliyyə bazarlarının inkişafı müasir qloballaşma prosesi üçün xarakterikdir.

Hazırda beynəlxalq ticarətin dinamik şəkildə inkişafı müvafiq münasibətlərin tənzimlənməsində yeni və daha qənaətbəxş vasitələrdən istifadə zərurətini meydana çıxarır. Beynəlxalq ticarət daha çox çoxtərəfli əsasda tənzimlənir. Müasir şəraitdə dünya ticarətinin çoxtərəfli əsasda tənzimlənməsinin əsas istiqamətləri aşağıdakılardır:

- Maraqlı dövlətlər tərəfindən ticari-iqtisadi münasibətlərin əsas prinsip və normaların daxil olduğu müqaviləvi-hüquqi əsasının yaradılması.
- Dünya təsərrüfatı əlaqələrinə təsir göstərən ticari-siyasi vasitələr kompleksinin milli səviyyədə tətbiqinə münasibətdə razılaşmaların əldə olunması, ticarət siyasətinin ayrıca istifadəsi imkanları və çərçivələrinin müəyyən olunması.
- dövlətlərarası ticari-iqtisadi mübahisələrin həllində beynəlxalq institutların yaradılması.
- Ticari-iqtisadi əlaqələrin təşkili üzrə təcrübə və informasiya mübadiləsi [9, 59].

XXI əsrin başlanğıcı müasir dünya iqtisadiyyatında, ilk növbədə onun inkişaf edən qloballaşması ilə bağlı yeni tendensiyaları özündə əks etdirir. Dünya iqtisadiyyatının qloballaşması prosesi beynəlxalq ticari-iqtisadi münasibətləri tənzimləyən beynəlxalq təşkilatlar sisteminə keyfiyyət baxımından yeni tələblər təqdim edir.

Dünya iqtisadiyyatının qloballaşmasında Ümumdünya Ticarət Təşkilatı (ÜTT) əhəmiyyətli rola malikdir. 2001-ci ilin noyabr ayında ÜTT-nin Doha şəhərində keçirilmiş Konfransında Çin və Tayvanın Təşkilata üzv qəbul edilməsindən sonra ÜTT üzv-dövlətlərinin dünya ticarətindəki payı 95%-ə çatmışdır [11, 5].

Qeyd etmək lazımdır ki, İkinci Dünya Müharibəsindən sonra beynəlxalq ticarətdə hökmranlıq edən proteksionizm siyasətinin zəifləməsi baş vermişdir. Nəticədə 1948-2000-ci illər arasında dünya ticarəti dinamik şəkildə inkişaf etmiş, əmtəələrin ixracı 346 mlrd. Dollardan 6,3 trln. Dollara (yəni, 18 dəfədən çox) qalxmışdır [11, 5].

Hazırda beynəlxalq ticarətin liberallaşdırılması əleyhinə olan ideyalar da formalaşmışdır. Bu ideyanı dəstəkləyən, alim və mütəxəssislər hesab edirlər ki, beynəlxalq ticarətin liberallaşdırılması İEOÖ-də kasıb təbəqədən olan əhalinin vəziyyətini daha da pisləşdirir, yoxsulluğu artırır. Nəticədə isə çoxlu varlılar və çoxlu kasıbların meydana gəlməsinə şərait yaradır. Bu ideya əsassız və izahsız deyil, belə ki, müasir ticari-iqtisadi münasibətlərin liberallaşdırılması bütün təsərrüfat subyektlərinin bərabər şəkildə rəqabətini istisna edir.

Yuxarıda qeyd etdiyimiz fikri Çinin ÜTT-yə daxil olması üzərində izah edək. Çin 2001-ci ildə 15 ildən çox aparılan danışıqlardan sonra 200 qeyd-şərtlə Təşkilata üzv qəbul edilmişdir. Xüsusilə də, Çin öz daxili sığorta bazarını xarici investorlar üçün tam şəkildə açıq elan etməli və xüsusi iqtisadi zonalarda investisiyalaşmanın xüsusi şərtlərini ləğv etməlidir. Onu da qeyd edək ki, məhz bu şərtlər ölkə iqtisadiyyatının intensiv inkişafında həlledici amillərdən olmuşdur. Bununla yanaşı, Çin 15 il müddətinə bazar iqtisadiyyatlı ölkə olmayacaq, bu isə o deməkdir ki, Çin antidempinq prosedurları tətbiq edə və ÜTT-nin Kvaziarbitraj Məhkəməsinə (Roster) müraciət edə bilməz. Çinin iqtisadi sferada qanunvericiliyi üzərində ÜTT-nin monitorinqi aparılmalı, kənd təsərrüfatı məhsulları üzərində idxal gömrük rüsumları aşağı salınmalıdır. Bütün bu amillərin Çin iqtisadiyyatına mənfi təsir göstərməməsi isə qeyri-mümkündür [8, 12].

Bütün bunlarla yanaşı, ÜTT-nin dünya iqtisadiyyatında rolu böyükdür, hazırda ÜTT-nin 153 üzvü və 30 müşahidəçi statuslu üzv-dövləti var [12]. Bununla yanaşı, 60-dan çox beynəlxalq təşkilat (BMT, Beynəlxalq Valyuta Fondu, Beynəlxalq Yenidənqurma və İnkişaf Bankı, FAO və s.) ÜTT-də müşahidəçi statusuna malikdir, dünya ticarət dövriyyəsinin 95%-ni məhz bu Təşkilat tənzimləyir.

Son zamanlar ÜTT üzvləri arasında Təşkilatın statusunun və bütövlükdə fəaliyyətinin dəyişdirilməsi ilə bağlı ideyalar da formalaşmışdır. Müvafiq sferada əsasən iki istiqamət özünü daha aydın biruzə verir. Birincisi, dövlətlərin milli maraq və mənafelərinin Təşkilatın normaları üzərində üstünlüyü, ikincisi, əqli mülkiyyət hüququnun tənzimlənməsi məsələsinin elmin biznesə çevrilməsinə gətirib çıxarması ilə bağlıdır. İkinci ideyanın tərəfdarları hesab edirlər ki, hazırda dünyada tropik xəstəliklərin müalicəsinə nisbətən kosmetik vasitələrin hazırlanmasına daha çox vəsait sərf olunur. Lakin onu da qeyd edək ki, bu məsələlər hələ hüquqi əsası olmayan, lakin müzakirə obyekti olan məsələlərdir.

## ƏDƏBİYYAT

1. Авдокушин Е.Ф. Международные экономические отношения. М.: Юристь, 2001, 366 с.
2. Бандурин В.В., Рацич Б.Г., Чатич М. Глобализация мировой экономики и Россия. М.: Буквица, 1999, 279 с.

3. Блатова Н.Т. Международное право в документах. М.: Юридическая литература, 1982, 853 с.
4. Бублик В.А. Публично- и частно-правовые начала в гражданско-правовом регулировании внешнеэкономической деятельности. Дисс. на соиск. уч. ст. д.ю.н. Екатеринбург, 2000, 329 с.
5. Герчикова И.Н. Международные экономические организации: регулирование мирохозяйственных связей и предпринимательской деятельности. М.: АО «Консалтбанкир», 2000, 621 с.
6. Зверев Ю.М. Мировая экономика и международные экономические отношения: Учебное пособие. Калининград: Калинингр. Ун-т, 2000, 81 с.
7. Ковалев А.А. Международное экономическое право и правовое регулирование экономической деятельности. М.: Научная Книга, 2007, 424 с.
8. Смитиенко Б.М. Всемирная торговая организация в мировой экономике и перспективы вступления России в ВТО. М., Финансовая академия, 2002, 385 с.
9. Шреплер Х.А. Международные экономические организации. Справочник. М.: Международные отношения, 1998, 456 с.
10. Шумилов В.М. Международное экономическое право в эпоху глобализации. М.: ИМО, 2003, 272 с.
11. World Trade Slows Sharply in 2001 Amid the Uncertain International Situation. WTO News: 2001 Press Releases. Press. 249. 19 October, www.wto.org. 2001.
12. www.wto.org/english/news_e/pres01_e/pr249_e.htm

## ПРОБЛЕМЫ МЕЖДУНАРОДНОЙ ИНТЕГРАЦИИ И ЭКОНОМИЧЕСКОГО СОТРУДНИЧЕСТВА

**А.М.МАГЕРРАМОВ**

### РЕЗЮМЕ

Данная статья посвящена весьма актуальной проблеме. Автор статьи обратился к проблеме экономической интеграции и сотрудничества. Анализировал проблему с ее различными составными частями. В статье использована научная литература и интернет ресурс. Особое внимание уделено деятельности ВТО. В том числе затронуты вопросы глобализации в контексте экономической интеграции и сотрудничества. Также подведены итоги и изучены правовые аспекты проблемы.

## PROBLEMS OF THE INTERNATIONAL INTEGRATION AND ECONOMIC COOPERATION

**A.M.MAHARRAMOV**

### SUMMARY

The article deals with the problem of economic integration and cooperation, one of the most actual problems of nowadays. The problem is investigated with its constituent parts. The author refers to scientific literature and internet resources, and focuses on the illustration of the activity of WTO. Issues of globalization in the context of economic integration and cooperation and the legal aspects of the problem are elucidated and summarized in the article as well.